No: 04 2026
https://doi.org/10.64400/ea26-04-12
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

BAZAR MÜNASİBƏTLƏRİ ŞƏRAİTİNDƏ İQTİSADİYYATIN ŞAXƏLƏNDİRİLMƏSİ: NƏZƏRİ YANAŞMALAR VƏ İNKİŞAF STRATEGİYALARI

Eltun İBRAHİMOV[1], **Gülnar CABBAROVA**[1]
[1] Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan
Yazışılan müəllif: ibrahimoveltun@ndu.edu.az

NƏŞR TARİXİ:
Qəbul edilmə tarixi: 17.11.2026
Nəşr edilmə tarixi: 30.11.2026

AÇAR SÖZLƏR:
iqtisadi diversifikasiya, iqtisadi artım, ixrac, qeyri-neft sektoru, xarici bazar, məhsul

XÜLASƏ
Məqalədə bazar münasibətləri şəraitində iqtisadiyyatın şaxələndirilməsinin mahiyyəti, nəzəri əsasları, əsas formaları və dayanıqlı iqtisadi inkişafın təmin edilməsində rolu araşdırılır. Tədqiqatın əsas məqsədi iqtisadi və ixrac diversifikasiyasının struktur dəyişikliklərinə, xarici iqtisadi şoklara davamlılığa, rəqabət qabiliyyətinə və əlavə dəyərin yaradılmasına təsir mexanizmlərini sistemləşdirmək, resurs gəlirlərindən asılı iqtisadiyyatlar üçün prioritet inkişaf istiqamətlərini müəyyənləşdirməkdir. Müqayisəli, sistemli və struktur təhlil metodları əsasında üfüqi və şaquli diversifikasiya, ixracyönümlü sənayeləşmə və idxaləvəzləyici istehsal strategiyalarının iqtisadi üstünlükləri və tətbiq xüsusiyyətləri qiymətləndirilir. Norveç və Səudiyyə Ərəbistanının beynəlxalq təcrübələri müqayisə edilir, həmin yanaşmaların Azərbaycan iqtisadiyyatında tətbiqi imkanları nəzərdən keçirilir. Araşdırma göstərir ki, iqtisadi fəaliyyət sahələrinin genişlənməsi özlüyündə dayanıqlı iqtisadi artımı təmin etmir. Məhsuldarlığın yüksəldilməsi, texnoloji inkişaf, institusional keyfiyyət, rəqabət mühitinin təkmilləşdirilməsi və insan kapitalının gücləndirilməsi diversifikasiyanın səmərəliliyini müəyyən edən əsas amillərdir. Azərbaycan üçün resurs gəlirlərinin qeyri-neft sektoruna səmərəli yönəldilməsi, yüksək əlavə dəyər yaradan istehsal sahələrinin inkişafı, emal sənayesinin və ixrac zəncirlərinin genişləndirilməsi, innovasiya fəaliyyətinin stimullaşdırılması, regional sahibkarlığın dəstəklənməsi və nəticəyönümlü qiymətləndirmə mexanizmlərinin gücləndirilməsi istiqamətində müvafiq təkliflər irəli sürülür. Bu tədbirlərin iqtisadi strukturun davamlı transformasiyasına və uzunmüddətli makroiqtisadi sabitliyə töhfə verə biləcəyi əsaslandırılır.

GİRİŞ

Qlobal iqtisadiyyatda təchizat zəncirlərinin yenidən qurulması, texnoloji dəyişikliklərin sürətlənməsi və xammal qiymətlərində dalğalanmalar iqtisadi strukturun dayanıqlılığı məsələsini ön plana çıxarır. Tək bir sahə və ya məhdud ixrac məhsulları qrupundan asılılıq fiskal gəlirləri, məşğulluğu və investisiya gözləntilərini xarici şoklara həssas edir. Buna görə diversifikasiya təkcə iqtisadi fəaliyyət sahələrinin artırılması deyil, həm də iqtisadiyyatın daha yüksək məhsuldarlığa və sabit gəlir mənbələrinə doğru struktur transformasiyası kimi nəzərdən keçirilməlidir.

İqtisadiyyatın şaxəli inkişafı bazar münasibətləri, investisiya mühiti, resurs təminatı, ixrac siyasəti və insan kapitalı ilə əlaqəli kompleks proses kimi təqdim edilməlidir. Bu yanaşma genişləndirilərək məqalədə belə bir tədqiqat sualı qoyulur: iqtisadi şaxələnmə hansı şərtlərdə yalnız yeni fəaliyyətlərin yaranması ilə məhdudlaşmır və dayanıqlı artımın, rəqabətqabiliyyətliliyin və risklərin azaldılmasının amilinə çevrilir?

Tədqiqatın məqsədi diversifikasiyanın məzmun elementlərini və həyata keçirilmə mexanizmlərini təhlil etmək, beynəlxalq təcrübədən çıxarılan dərsləri müqayisə etmək və Azərbaycanın iqtisadi strukturunun keyfiyyətcə yenilənməsi üçün praktik prioritetləri əsaslandırmaqdır. Məqalənin elmi-praktik yanaşması diversifikasiyanın kəmiyyət genişlənməsi ilə məhsuldarlığa əsaslanan keyfiyyət dəyişməsini fərqləndirməsinə söykənir.

MATERİAL VƏ METODLAR

Tədqiqatın nəzəri-metodoloji əsasını iqtisadi diversifikasiya, struktur dəyişiklikləri və dayanıqlı iqtisadi inkişafla bağlı elmi yanaşmalar təşkil edir. Araşdırmada iqtisadiyyatın şaxələndirilməsinin mahiyyəti, əsas formaları, iqtisadi artıma və rəqabətqabiliyyətliliyə təsiri,

həmçinin bu prosesin həyata keçirilməsini şərtləndirən institusional, texnoloji və iqtisadi amillər nəzərdən keçirilmişdir.

Tədqiqatda sistemli yanaşma, müqayisəli və struktur təhlili, elmi abstraksiya və ümumiləşdirmə metodlarından istifadə edilmişdir. Sistemli yanaşma diversifikasiya proseslərinin iqtisadiyyatın müxtəlif sahələri ilə qarşılıqlı əlaqəsini qiymətləndirməyə, müqayisəli təhlil üfüqi və şaquli diversifikasiya strategiyalarının xüsusiyyətlərini müəyyənləşdirməyə, struktur təhlili isə iqtisadi fəaliyyətlərin şaxələndirilməsinin inkişaf imkanlarını araşdırmağa yönəldilmişdir.

NƏTİCƏLƏRİN MÜZAKİRƏSİ

İqtisadi şaxələndirmənin nəzəri mahiyyəti və struktur transformasiyası

İqtisadi diversifikasiya iqtisadi fəaliyyətin məhsul, sektor, texnologiya, bazar və gəlir mənbələri üzrə müxtəlifləşdirilməsidir. Makroiqtisadi səviyyədə bu, ayrı-ayrı sahələrin ÜDM, məşğulluq və ixrac strukturundakı çəkilərinin dəyişməsi; mikroiqtisadi səviyyədə isə müəssisələrin yeni məhsullara, müştəri qruplarına və dəyər zənciri mərhələlərinə daxil olması ilə ifadə edilir. Bu iki səviyyə bir-birini tamamlayır: müəssisə səviyyəsində səmərəli yeni fəaliyyət yaranmadan ölkə miqyasında davamlı struktur dəyişmə mümkün olmur.

Diversifikasiyanı sadə genişlənmədən fərqləndirmək vacibdir. Eyni məhsulun satış həcminin artırılması və ya eyni biznes modelinin digər şəhərə köçürülməsi miqyas artımı yaradır, lakin məhsul və ya fəaliyyət strukturunun dəyişməsini mütləq ifadə etmir. Şaxələndirmədə isə gəlir əldə etməyin mahiyyətcə yeni kanalları, texnologiyaları və bazarları formalaşır. Bu fərq siyasətin nəticələrini ölçərkən yeni müəssisələrin sayına deyil, onların yaratdığı əlavə dəyərə, məhsuldarlığa və ixrac keyfiyyətinə diqqət yetirməyi tələb edir.

İqtisadi fəaliyyətlərin müxtəlifliyi ilə inkişaf səviyyəsi arasındakı münasibət düzxətli olmaya bilər. Imbs və Wacziarg (2003) inkişafın ilkin mərhələlərində sektorlar üzrə müxtəlifliyin genişlənməsini, müəyyən yüksək gəlir səviyyələrində isə yenidən ixtisaslaşma meylini göstərmişlər. Hausmann, Hwang və Rodrik (2007) ixrac edilən məhsulların xarakterinin və bilik tutumunun sonrakı iqtisadi artımla əlaqəsini vurğulamışlar. Beləliklə, diversifikasiya hər bir şəraitdə mümkün qədər çox sahəyə sərmayə yatırmaq deyil, yeni məhsuldar kompetensiyaların yaradılması və iqtisadi mürəkkəbliyin artırılması kimi başa düşülməlidir.

Üfüqi və şaquli diversifikasiya: qarşılıqlı tamamlayıcılıq

Üfüqi diversifikasiya müəssisənin və ya iqtisadiyyatın mövcud fəaliyyət bazasından yeni məhsul, xidmət və bazarlara keçməsini nəzərdə tutur. Bu keçid mövcud bilik və satış kanallarına yaxın istiqamətlərdə, yaxud tam fərqli fəaliyyətlərdə reallaşa bilər. Şaquli diversifikasiya isə dəyər zəncirinin əvvəlki və ya sonrakı mərhələlərinə inteqrasiya, xammalın emalı, komponent istehsalı, logistika, brend və satış xidmətləri kimi əlavə dəyər yaradan proseslərin mənimsənilməsidir.

Məsələn, kənd təsərrüfatı məhsulunu xammal kimi satmaq əvəzinə onun çeşidlənməsi, qablaşdırılması və emalını inkişaf etdirmək şaquli transformasiya imkanlarını genişləndirir. Eyni istehsal və texnoloji bacarıqlardan istifadə etməklə yeni məhsul xətti yaratmaq üfüqi istiqamətə nümunə ola bilər. Lakin müəssisə səviyyəsində üfüqi inteqrasiya anlayışı ilə makrosəviyyəli məhsul diversifikasiyasını eyniləşdirmək düzgün deyil: birincisi bazar strukturunu və rəqabəti də dəyişdirə bilər.

Hər iki yanaşmanın müsbət nəticələri avtomatik deyil. Şaquli inteqrasiya təchizat risklərini azaltmaqla yanaşı, idarəetmə xərclərini artıra bilər; üfüqi genişlənmə isə bazar imkanlarını artırsa da, kompetensiyaların həddindən artıq yayılmasına və rəqabətin məhdudlaşdırılmasına səbəb ola bilər. Bu səbəbdən seçim müəssisələrin texnoloji imkanları, investisiya tutumu və bazar rəqabəti əsasında aparılmalıdır.

Cədvəl 1. *İqtisadi diversifikasiyanın əsas istiqamətlərinin müqayisəsi*

Meyar	**Üfüqi şaxələndirmə**	**Şaquli şaxələndirmə**
Əsas məzmun	Yeni məhsul və bazar istiqamətləri	Dəyər zəncirinin əlavə mərhələlərinin mənimsənilməsi
Əsas iqtisadi məqsəd	Gəlir mənbələrinin və bazarların genişləndirilməsi	Əlavə dəyərin və təchizat səmərəliliyinin artırılması
Əsas imkan	Risklərin daha çox məhsul və bazara bölünməsi	Emal, keyfiyyət və satış marjasının yüksəlməsi
Potensial məhdudiyyət	İdarəetmə mürəkkəbliyi və yeni bazar riski	Yüksək kapital ehtiyacı və koordinasiya xərcləri
Siyasət prioriteti	Rəqabət, innovasiya, ixrac bazarlarına çıxış	Emal infrastrukturu, standartlar və logistika

Qeyd: Müəlliflər tərəfindən hazırlanmışdır.

İxrac strategiyaları və şaxələndirmənin keyfiyyət göstəriciləri

İxracın diversifikasiyası məhsul çeşidinin və xarici bazarların genişlənməsi ilə yanaşı, texnoloji və bilik tutumunun yüksəlməsini də əhatə edir. Məhsul sayının çoxalması hər zaman ixracın keyfiyyətcə yaxşılaşması demək deyil. Xammal ixracına yeni oxşar xammal kateqoriyalarının əlavə edilməsi bir tip qiymət şokuna həssaslığı tam aradan qaldırmaya bilər. Digər tərəfdən, emal, sertifikatlaşdırma, dizayn və satış sonrası xidmətlər kimi fəaliyyətlərin inkişafı ixracın yerli iqtisadiyyatda yaratdığı dəyəri artırır.

Şaxələndirmə iki əsas inkişaf strategiyasını fərqləndirir: idxaləvəzləyici istehsal və ixracyönümlü sənayeləşmə. Birinci yanaşma daxili istehsal potensialını qurmaq və müəyyən strateji asılılıqları azaltmaq məqsədi daşıyır. İkinci yanaşma isə müəssisələri beynəlxalq rəqabət, məhsul standartları və xarici tələb əsasında təkmilləşməyə təşviq edir. Hər iki strategiyanın nəticəsi seçilən alətlərin müddətindən, şəffaflığından və bazar nizam-intizamından asılıdır.

Dövlət dəstəyinin müvəqqəti və ölçüləbilən nəticələrlə əlaqələndirilməsi məqsədəuyğundur. İstehsal subsidiyaları, vergi güzəştləri və güzəştli maliyyə yalnız yeni bazar biliklərinin, məşğulluğun, məhsuldarlığın və ixracın genişlənməsi ilə müşayiət olunduqda uzunmüddətli ictimai fayda yarada bilər. Əks halda müdafiə olunan sahələr daimi güzəştlərdən asılı vəziyyətə düşə bilər.

Resurs zəngin ölkələrin təcrübəsi: Norveç və Səudiyyə Ərəbistanı

Təbii resurslardan yüksək gəlir əldə edən ölkələr üçün şaxələndirmə siyasətinin əsas problemi müvəqqəti resurs rentasını uzunömürlü məhsuldar aktivlərə çevirməkdir. Bu baxımdan Norveçin resurs gəlirlərinin yığılması və idarə edilməsində institusional yanaşması xüsusi qeyd etmək lazımdır. Norveçdə Dövlət Pensiya Fondu Qlobal və fiskal qayda neft gəlirlərinin büdcə xərclərinə mərhələli ötürülməsini tənzimləyir; rəsmi çərçivədə fondun gözlənilən real gəlirliliyi uzun müddət üzrə təqribən 3 faiz kimi qəbul edilir (Norveç Maliyyə Nazirliyi, 2025).

Bu təcrübədən çıxarılan əsas nəticə yalnız maliyyə vəsaitinin ehtiyat fondunda toplanması deyil, resurs gəlirlərinin sərf olunmasını fiskal intizam, nəsillərarası ədalət, şəffaflıq və geniş istehsal potensialı ilə əlaqələndirməkdir. Eyni zamanda Norveç modelini başqa iqtisadiyyatlara mexaniki tətbiq etmək mümkün deyil: iqtisadi struktur, institutlar, əhali və bazar ölçüsü fərqlidir.

Səudiyyə Ərəbistanı nümunəsi resurs gəlirlərindən asılılığın azaldılması üçün proqramlaşdırılmış transformasiyanın başqa istiqamətini göstərir. "Saudi Vision 2030" qeyri-neft fəaliyyətləri, turizm, xidmətlər, investisiya və insan kapitalı üzrə hədəflər ətrafında qurulmuş strateji çərçivədir. Bu yanaşma dövlətin koordinasiya rolunu gücləndirsə də, hər bir təşəbbüsün səmərəliliyi uzunmüddətli özəl investisiya, real rəqabət və maliyyə dayanıqlılığı əsasında qiymətləndirilməlidir.

Azərbaycan üçün struktur siyasətinin prioritetləri

Azərbaycanın iqtisadi şaxələndirmə imkanları enerji sektorundan formalaşan kapitalın qeyri-neft iqtisadiyyatına yönəldilməsi, daxili bazarın inkişafı, regionların istehsal potensialından istifadə və xarici bazarlara çıxış perspektivləri ilə bağlıdır. Azərbaycan Respublikası Dövlət Neft Fondu

resurs gəlirlərinin idarə olunmasında mühüm institusional mexanizmdir; lakin maliyyə resurslarının mövcudluğu iqtisadi transformasiyanın yalnız ilkin şərtidir. Dayanıqlı nəticə üçün kapitalın məhsuldar layihələrə çevrilməsi və həmin layihələrin iqtisadi göstəricilərinin qiymətləndirilməsi zəruridir.

İlk prioritet kənd təsərrüfatı və digər xammal sahələrində emal, qablaşdırma, soyuducu logistika, standartlaşdırma və marketinq zəncirlərinin inkişafıdır. İkinci prioritet rəqəmsal xidmətlər, peşə və texnoloji təhsil, biznes xidmətləri və sənaye təchizatı kimi sahələrdə yeni kompetensiyaların yaradılmasıdır. Üçüncü prioritet regionlar üzrə vahid mexaniki ixtisaslaşmadan uzaqlaşaraq yerli resurslar, bazara çıxış və insan kapitalı əsasında fərqləndirilmiş investisiya yanaşmasının tətbiqidir.

Maliyyələşmədə sahibkarlıq kreditləri ilə yanaşı, zəmanət mexanizmləri, lizinq, özəl kapital iştirakı və innovasiya layihələrinin mərhələli dəstəklənməsi əhəmiyyət kəsb edə bilər. Bu alətlər yalnız maliyyəyə çıxışı deyil, investisiyanın məhsuldarlığını və sahibkarların yeni fəaliyyətlərə keçmə qabiliyyətini yaxşılaşdırmalıdır. Dövlət proqramlarında sahəvi hədəflərlə yanaşı müəssisə səviyyəsində ölçülən nəticələrin də müəyyənləşdirilməsi tövsiyə edilir.

Cədvəl 2. *Azərbaycan üçün diversifikasiya siyasətinin təklif edilən qiymətləndirmə çərçivəsi*

İstiqamət	**Siyasət aləti**	**İzlənə bilən nəticə göstəricisi**
Emal və dəyər zənciri	İnfrastruktur, standart, texniki dəstək	Emal məhsullarının əlavə dəyəri və ixrac payı
Yeni sahələr və innovasiya	Bacarıqlar, tədqiqat-sənaye əməkdaşlığı	Yeni məhsullar və məhsuldarlıq dəyişməsi
Regional sahibkarlıq	Yerli klasterlər, logistika, maliyyəyə çıxış	Region üzrə yeni dayanıqlı məşğulluq
İxrac bazarları	Sertifikatlaşdırma, ticarət təşviqi	Yeni ixrac bazarları və məhsul qrupları
İnstitusional səmərəlilik	Nəticəyönümlü dəstək və monitorinq	Dəstəyin hər vahidinə düşən iqtisadi nəticə

Qeyd: Cədvəl müəlliflər tərəfindən hazırlanmışdır.

NƏTİCƏ

Aparılan nəzəri və müqayisəli təhlil göstərir ki, iqtisadiyyatın şaxələndirilməsi bir-birindən müstəqil sahələrin çoxaldılması deyil, iqtisadi resursların daha məhsuldar fəaliyyətlərə istiqamətləndirilməsi, yeni kompetensiyaların formalaşması və xarici risklərə həssaslığın azaldılması prosesidir. İqtisadiyyatın şaxələnməsi ilə dayanıqlı artım arasındakı əlaqə institusional mühitdən, insan kapitalından, texnoloji yenilənmədən və rəqabətin keyfiyyətindən asılıdır.

Üfüqi və şaquli diversifikasiya qarşılıqlı tamamlayıcı alətlərdir. Birincisi yeni məhsul və bazar imkanları yaradır, ikincisi isə dəyər zəncirlərinin dərinləşdirilməsi yolu ilə əlavə dəyəri artırır. İxrac siyasətində məhsul çeşidinin kəmiyyətcə genişlənməsi ilə onun texnoloji və keyfiyyət dəyişməsi bir-birindən fərqləndirilməlidir. Beynəlxalq müqayisə resurs gəlirlərindən istifadədə fiskal intizam və uzunmüddətli strategiyanın əhəmiyyətini təsdiqləyən nümunələr təqdim edir, lakin hər bir ölkə üçün vahid universal model müəyyən etmir.

Azərbaycan üçün əsas vəzifə enerji gəlirlərinin qeyri-neft sektorunda məhsuldarlıq, emal, innovasiya və regional sahibkarlıq imkanlarına çevrilməsini gücləndirməkdir. Bu məqsədlə dövlət dəstəyi şəffaf və nəticəyə bağlı olmalı, strateji tədbirlər əlavə dəyər, ixracın mürəkkəbliyi, yeni bazarlara çıxış, dayanıqlı məşğulluq və özəl investisiya indikatorları ilə qiymətləndirilməlidir. Məqalə konseptual xarakter daşıdığından sonrakı araşdırmalarda bu göstəricilərin zaman sıraları və sahəvi məlumatlar əsasında empirik sınaqdan keçirilməsi məqsədəuyğundur.

ƏDƏBİYYATLAR

Azərbaycan Respublikası Dövlət Neft Fondu. (n.d.). Rəsmi internet səhifəsi. https://www.oilfund.az/

Hausmann, R., Hwang, J., & Rodrik, D. (2007). What you export matters. Journal of Economic Growth, 12(1), 1-25. https://doi.org/10.1007/s10887-006-9009-4

Imbs, J., & Wacziarg, R. (2003). Stages of diversification. American Economic Review, 93(1), 63-86. https://doi.org/10.1257/000282803321455160

Norges Bank Investment Management. (n.d.). About the fund. https://www.nbim.no/en/about-us/about-the-fund/

Norveç Maliyyə Nazirliyi. (2025). The Government Pension Fund and fiscal policy guideline. https://www.regjeringen.no/en/documents/meld.-st2.-22-20242025/id3119577/

Saudi Vision 2030. (n.d.). Vision 2030. https://www.vision2030.gov.sa/

ABSTRACT

ECONOMIC DIVERSIFICATION UNDER MARKET CONDITIONS: THEORETICAL APPROACHES AND DEVELOPMENT STRATEGIES

Eltun Ibrahimov, Gulnar Jabbarova

Nakhchivan State University, Nakhchivan, Azerbaijan

This article examines the essence, theoretical foundations, and primary forms of economic diversification within the context of market relations, as well as its role in ensuring sustainable economic development. The primary objective of the research is to systematize the mechanisms through which economic and export diversification influence structural changes, resilience to external economic shocks, competitiveness, and value creation, while also identifying priority development paths for economies dependent on resource revenues. Utilizing comparative, systemic, and structural analysis, the study evaluates the economic advantages and implementation characteristics of horizontal and vertical diversification, export-oriented industrialization, and import-substituting production strategies. The international experiences of Norway and Saudi Arabia are compared, and the potential for applying these approaches within the Azerbaijani economy is explored. The research indicates that the expansion of economic activity sectors does not, in itself, guarantee sustainable economic growth. Increasing productivity, technological advancement, institutional quality, improving the competitive environment, and strengthening human capital are the key factors that determine the effectiveness of diversification. For Azerbaijan, proposals are put forward regarding the efficient channeling of resource revenues into the non-oil sector, the development of production areas that generate high value-added, the expansion of the processing industry and export chains, the stimulation of innovation, the support of regional entrepreneurship, and the strengthening of results-oriented evaluation mechanisms. It is argued that these measures can contribute to the sustainable transformation of the economic structure and to long-term macroeconomic stability.

Keywords*: economic diversification, economic growth, exports, non-oil sector, foreign market, product*

РЕЗЮМЕ

ДИВЕРСИФИКАЦИЯ ЭКОНОМИКИ В УСЛОВИЯХ РЫНКА: ТЕОРЕТИЧЕСКИЕ ПОДХОДЫ И СТРАТЕГИИ РАЗВИТИЯ

Эльтун Ибрагимов, Гюльнар Джаббарова

Нахчыванский государственный университет, Нахчыван, Азербайджан

В данной статье рассматриваются сущность, теоретические основы и основные формы экономической диверсификации в контексте рыночных отношений, а также её роль в обеспечении устойчивого экономического развития. Главная цель исследования — систематизировать механизмы, посредством которых диверсификация экономики и экспорта

влияет на структурные изменения, устойчивость к внешним экономическим шокам, конкурентоспособность и создание добавленной стоимости, а также определить приоритетные пути развития для экономик, зависящих от доходов от природных ресурсов. С применением методов сравнительного, системного и структурного анализа в работе оцениваются экономические преимущества и особенности реализации стратегий горизонтальной и вертикальной диверсификации, экспортно-ориентированной индустриализации и импортозамещающего производства. Проводится сопоставление международного опыта Норвегии и Саудовской Аравии, а также изучаются возможности применения подобных подходов в экономике Азербайджана. Исследование показывает, что расширение секторов экономической деятельности само по себе не гарантирует устойчивого экономического роста. Ключевыми факторами, определяющими эффективность диверсификации, являются повышение производительности, технологический прогресс, качество институтов, развитие конкурентной среды и укрепление человеческого капитала. Для Азербайджана предложены меры, касающиеся эффективного направления доходов от природных ресурсов в ненефтяной сектор, развития производств с высокой добавленной стоимостью, расширения перерабатывающей промышленности и экспортных цепочек, стимулирования инноваций, поддержки регионального предпринимательства, а также совершенствования механизмов оценки, ориентированных на конкретные результаты. Утверждается, что данные меры могут способствовать устойчивой трансформации экономической структуры и обеспечению долгосрочной макроэкономической стабильности.

***Ключевые слова**: экономическая диверсификация, экономический рост, экспорт, ненефтяной сектор, внешний рынок, продукт*